# İsmayıllı: yüksək məsuliyyət və işgüzarlıq sosial-iqtisadi inkişafın etibarlı təminatıdır



***Doğrudan da, jurnalistikada, xüsusən, bölgə müxbiri vəzifəsində çalışmaq kifayət qədər məsuliyyətli və olduqca maraqlıdır. Bunu bütün həmkarlarım etiraf edirlər. Həmin məsuliyyəti yaradan səbəblərdən biri də odur ki, hansısa şəhər və ya rayon haqqında qəzet materialı hazırlayarkən ilk növbədə nəzərə alınmalı məqamları seçməli oluruq. Məsələn, mənim daha çox seçdiyim, qələmə almaq istədiyim sahə insan amilidir. Rayon sakinlərinin sosial-rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımları, bütün zümrələrdən olan insanların problemlərinin aradan qaldırılması üçün həyata keçirilən tədbirləri daha çox qabartmaq, daha işıqlandırmaq istəyirəm. Səmimiyyətlə qeyd edim ki, bunu təkcə dövlət siyasətinin əsas istiqamətlərinin işıqlandırılması üçün deyil, həm də sadə bir jurnalist marağı ilə edirəm. İsmayıllı haqqında material hazırlayarkən də həmin ənənəyə sadiq qalmaq istədim.***

... Dövlət başçımızın elan etdiyi "Multikulturalizm ili" ilə əlaqədar İsmayıllıda çoxsaylı tədbirlər həyata keçirilir. Hazırda bu rayonda 8 azsaylı xalqın, milli azlığın, etnik qrupun nümayəndələri yaşayır, öz adət-ənənələrini, milli mədəniyyətlərini inkişaf etdirir, azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək öz vətəndaşlıq borclarını ləyaqətlə yerinə yetirirlər. Bu istiqamətdə rayon icra hakimiyyətinin, ictimai təşkilatların, qeyri-hökumət təşkilatlarının, dövlət qurumlarının həyata keçirdiyi rəngarəng tədbirlər maraqla qarşılanır, yüksək səviyyədə icra olunur. Bu baxımdan böyük ictimai-siyasi əhəmiyyət kəsb edən tədbirlərdən biri də iyulun 20-dən 25-dək rayonun Lahıc qəsəbəsində reallaşdı. "ASAN könüllülər" təşkilatının təşəbbüsü, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti, Mədəniyyət və Turizm Nazirliyi, "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Avtomobil Federasiyası, BMT-nin "Əhali Fondu"nun təşkilati dəstəyi ilə Azərbaycanda multikultural ənənlərin mövcud olduğu və UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş misgərlik sənətinin vətəni Lahıcda "Həmrəylik düşərgəsi" layihəsi icra olundu.

Layihənin açılış mərasimində İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov Lahıcın Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olduğunu diqqətə çatdırdı. Azərbaycan Respublikasının Prezidenti yanında vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov ASAN Könüllülər Təşkilatının 8 min gənci öz ətrafında birləşdirdiyini söylədi və qeyd etdi ki, "Həmrəylik düşərgəsi"ndə könüllülərin sosial məsuliyyəti ilə yanaşı, vətənpərvərlik tərbiyəsinə də geniş yer verilib.

Mədəniyyət və Turizm Nazirinin birinci müavini Vaqif Əliyev, Dövlət Sərhəd Xidmətinin rəis müavini, general-mayor Ədalət Əliyev Azərbaycanda ilk dəfə keçirilən bu layihənin gənclər arasında milli-mədəni irsin, multikultural dəyərlərin qorunmasında xüsusi yer tutacağını qeyd etdilər. Layihəyə dəstək olan bütün şirkətlər adından "Azercell" şirkətinin prezidenti Vahid Mürsəliyev tədbirin vacibliyini və böyük əhəmiyyət daşıdığını bildidi. Xatırladaq ki, burada təmsil olunan könüllülər Azərbaycan Respublikasının Prezidenti yanında Bilik fondunun təşkilatçılığı ilə 16 ölkədən Lahıca gəlmiş "Yay məktəbi"nin nümayəndələri ilə də görüşüblər. İsmayıllıda təkcə bu ilin əvvəlindən bəri 30-dan çox tədbirdə iştirak etmişəm. Bəs nə üçün yazıya məhz bu tədbir haqqında cümlələrlə başladım? Çünki bu rayonda son üç ildə insanların həyatının asanlaşdırılması, onların problemlərinin həlli məsələsi bir nömrəli vəzifə kimi qarşıya qoyulub və bu sahədə kifayət qədər uğurlar əldə edilib. Müxtəlif ölkələri təmsil edən çoxsaylı gənclər də İsmayıllıda şahidi olduqları həqiqətlər barədə ürək sözlərini yazıblar. Bu yerdə təəssüflə qeyd edim ki, əcnəbilər bu rayonda gördükləri reallıqlar barədə müsbət rəylərini qələmə alsalar da, öz respublikamızı təmsil edən bəzi həmkarlarımız İsmayıllı haqqında heç bir reallığa əsaslanmayan qərəzli materiallar yazırlar. Məncə, bunun bircə səbəbi var – əcnəbilər gördükləri barədə yazırlar, bizim bəzi həmkarlarımız isə kimdənsə eşitdikləri qərəzli fikirlər əsasında. Ona görə mən elə həmin həmkarlarımızı İsmayıllıya dəvət edirəm: gəlin, görün, qiymətləndirin. Əminəm ki, İsmayıllıdakı bugünkü tərəqqini, inkişafı, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirləri görən kimsə mütləq həqiqəti söyləməli olacaq. Bu əhatəli girişdən sonra mən məhz həmin həqiqətləri qələmə almaq istəyirəm.

Bu gün təkcə İsmayıllı deyil, ümumiyyətlə, respublikamızın bütün rayon və şəhərləri geniş tikinti meydançasını xatırladır. Bu tendensiyanın daha da sürətləndirilməsi üçün həm mərkəzi, həm də yerli icra hakimiyyətləri yeni variantlar, yollar axtarırlar. Məhz həmin axtarışların nəticəsi olaraq İsmayıllı "Tikinti-27" ASC Xanagah kəndinə yaxın ərazidə tikinti materialları kombinatını tikib istifadəyə verib. Burada saatda 100 kubmetr beton, 120 ton qum, bir o qədər çınqıl hazırlanacaq. Tam yeni texnologiya əsasında qurulmuş dam örtükləri bölməsində metal dam plitələri və kirəmit formalı dəmir örtük istehsal olunacaq. Müəssisədə 35 nəfər daimi işə qəbul olunub.

Kombinatın açılış mərasimində bildirilib ki, Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq bu kombinatın inşası başa çatıb və tikinti materialları istehsalına tam hazırdır. İstehsal edilmiş məhsullar bazar qiymətlərinə müsbət təsir edəcək, həm də 35 ailənin həyat şəraitini yaxşılaşdıracaq. İstehsal artdıqca firma mağazaları da açılacaq, İsmayıllı alıcıları artıq tikinti materialları üçün uzaq bazarlara üz tutmayacaqlar.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti, qayğısı və hərtərəfli dəstəyi ilə İsmayıllı yeniləşir, tikilir,qurulur və abadlaşır. Bu kombinatın açılışı da ölkə rəhbərinin sahibkarlığın inkişafı üçün yaratdığı şəraitin yeni bir təzahürüdür. Bundan sonra Basqalda, Qubaxəllilidə, Balikdə, Qalınçaqda və digər yerlərdə yeni-yeni müxtəlif profilli istehsal müəssisələri və iş yerləri açılacaq. Bildirilib ki, Prezident İlham Əliyevin xalqın xidmətçisi olmaq tapşırığı rayonda məsuliyyətlə icra olunur. Bu gün istifadəyə verilən kombinat da həmin məsuliyyətli münasibətin nəticəsidir. Yaradılan şərait onu göstərir ki, biz bundan sonra belə tədbirlərin daha çox şahidi və iştirakçısı olacağıq.

Ulu öndər Heydər Əliyev deyirdi ki, heç bir ölkə öz sərhədlərinə qapılaraq, təkbaşına inkişaf edə bilməz, inkişaf üçün xarici aləmlə əməkdaşlıq, təcrübə mübadiləsi mütləq lazımdır. Bu gün həmin tövsiyəyə respublikamızın hər yerində olduğu kimi, İsmayıllıda da sədaqətlə əməl olunur. Qəzetimizin 2013-cü ilin payız nömrələrində yazmışdıq ki, Azərbaycanın İsmayıllı və Yaponiyanın İto şəhərləri arasında qarşılıqlı dostluq mübadiləsi haqqında saziş imzalanıb, dostluq əlaqələri getdikcə möhkəmlənib. Qarşılıqlı səfərlər, təcrübə mübadilələri, yapon və Azərbaycan dili öyrənmə kursları təşkil edilib. Yaponiyalı şagirdlər İsmayıllıda, ismayıllılar isə Yaponiyanın İto şəhərində dostluq səfələrində olublar. "İto yay festivalı"nda iştirak etmək məqsədilə İsmayıllı rayon təhsil şöbəsi tərəfindən iki şagird və bir qrup rəhbərinin 12 günlük proqramla Yaponiyaya növbəti səfəri baş tutacaq. Bununla əlaqədar rayon icra hakimiyyətində şagirdlərin yola salınması üçün görüş keçirilib. Rayon icra hakimiyyəti başçısının müavini Sevil Əhmədova və Təhsil Şöbəsinin müdiri Rasim Orucov şagirdlərə uğurlar arzulayıblar, müstəqil Azərbaycan dövlətini, İsmayıllını yüksək səviyyədə təmsil etməyi onlara tövsiyə ediblər. Yəni bu gün İsmayıllıda cəmiyyət həyatının hansı sahəsinə baxırsansa, uğurlar, nailiyyətlərlə üzləşirsən.

Amma, gözümüz də, qulağımız da rəqəmlərə elə öyrəşib ki, uğur, nailiyyət deyəndə mütləq rəqəmləri axtarırıq. Ona görə də bəzi rəqəmləri yada salaq. Bu ilin geridə qalan ayları ərzində 68 milyon 931 min manat məbləğində ümumi məhsul istehsal olunub. Əsas kapitala 8 milyon 914 min 200 manat investisiya qoyulub. 3 milyon 212 min 700 manat dəyərində əsas fondlar istifadəyə verilib. Pərakəndə əmtəə dövriyyəsində 12 milyon 975 min, əhaliyə göstərilən pullu xidmətlərin həcmində 870 min manat artım əldə olunub. Bir işçiyə hesablanmış nominal orta aylıq əmək haqqı 254,8 manat təşkil edib.



Özü iqtisad elmləri doktoru olsa da, rəqəmlərlə danışmağı sevməyən Mirdaməd müəllim qeyd etdi ki, rayonda tikinti-quruculuq işləri davam etdirilir. Yaşayış evləri, inzibati binalar, yollar tikilir və ya əsaslı təmir olunur. Mirzə Fətəli Axundov küçəsində iki 9 mərtəbəli yaşayış binasının, Velosiped istehsalı zavodunun, Keyvəndi kəndində "AZZA Aqro" MMC tərəfindən 1500 başlıq iri heyvandarlıq təsərrüfatının, Qalınçaq kəndində "Şən Fermer" MMJ tərəfindən hind toyuğu əti istehsal edəcək fabrikin tikintisi davam etdirilir.



Göyçay çayı üzərində inşa olunan "İsmayıllı SES-2"-nin tikinti-quraşdırma işləri başa çatdırılıb və yaxın vaxtlarda istifadəyə veriləcək. Stansiyanın istismara verilməsi nəticəsində rayonun elektrik enerjisi ilə davamlı təchiz olunması təmin ediləcək. İsmayıllı şəhərində "Yaşıl market" ticarət kompleksinin tikintisi başa çatdırılıb. Rayon mərkəzində Meyvə-tərəvəz emalı və qablaşdırılması müəssisəsinin, fiziki şəxs tərəfindən isə yeni quşçuluq fabrikinin tikintisi davam etdirilir. Mollaisaqlı kəndində 30 başlıq südlük, 25 başlıq kökəltmə istiqamətli iri buynuzlu mal-qara üçün tövlə tikilib. Rayonun Talış kəndində iş adamı tərəfindən gündəlik istehsal gücü 1 ton olan pendir istehsalı emalatxanasında avadanlıqların quraşdırması işləri aparılır.




Həmsöhbətim qeyd etdi ki, rayonda sənayenin inkişafı diqqət mərkəzindədir. Hazırda "Sənaye məhəlləsi"nin yaradılması üçün imkanlar nəzərdən keçirilir, sahibkarlar və iş adamları ilə müvafiq söhbətlər aparılır. Yaşayış məntəqələrini birləşdirən yolların təmiri istiqamətində tədbirlər davam etdirilir. Respublika əhəmiyyətli Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunda sifarişçi və podratçı təşkilat "Azəravtoyol" ASC tərəfindən aparılan əsaslı təmir işləri əsasən başa çatdırılıb. Magistral yol 27 min nəfər əhalinin yaşadığı 34 yaşayış məntəqəsini rayon mərkəzi ilə birləşdirir. Avtomobil yolunun əsaslı təmir olunan 30 kilometrlik hissəsinin 28 kilometri İsmayıllı rayonunun, 2 kilometr hissəsi Göyçay rayonunun ərazisini əhatə edir. Yolda aparılan tikinti işləri zamanı Mehmanxanlı çayı üzərində uzunluğu 25 metr olan yeni bir aşırımlı körpü tikilib. Yolun əsaslı təmir olunması rayon sakinlərinin həyatında rahatlıq yaradıb.

Xatırladaq ki, kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyi məsələsi ölkə üçün həmişə prioritet olub, indiki şəraitdə bunun önəmi daha da artır. Rayon rəhbəri qeyd etdi ki, qarşıya qoyulmuş vəzifələrin icrası ilə əlaqədar rayonda müvafiq tədbirlər həyata keçirilir. Bu ilin əvvəlindən bəri kənd təsərrüfatında 29 milyon 606 min manat dəyərində ümumi məhsul istehsal edilib. 2015-ci ilin payızında əkilmiş 29 min 342 hektar payızlıq taxıl bitkisi sahələrinə aqrotexniki qaydalara uyğun qulluq olunduğu üçün normal bitiş alındı. Biçin mövsümünə ciddi hazırlıq işləri görüldü. Yanğın təhlükəsinin qarşısını almaq üçün müvafiq tədbirlər həyata keçirildi. Biçin optimal müddətdə başa çatdırılmaq üzrədir. İyul ayının 20-nə olan məlumata əsasən rayonda 99 min tondan çox taxıl istehsal olunub. Dəmyə şəraitdə hər hektardan 35,03 sentner məhsul alınıb ki, bu da yüksək göstəricidir. Biçilməmiş 1026 hektar sahə qalmışdır. Biçin davam edir. Xatırladaq ki, may-iyun aylarında yağan leysan yağışlar və sel suları taxılçılığa da təsirsiz ötüşmədi. İsmayıllıda min hektardan artıq əkin sahəsi sel suları altında qaldı. Yüzlərlə hektar sahədə məhsuldarlıq aşağı düşdü.

Rayonda kartofçuluq, tütünçülük və baramaçılığın inkişafı diqqət mərkəzindədir. Sənaye üsulu ilə əkilmiş 125 hektar sahədə kartof sahələrində becərmə işləri davam etdirilir. 5 hektar tütün əkini sahələrində aqrotexniki qulluq işləri, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri davam etdirilir, hazırda yarpaq dəriminə başlanılıb. Kümçülər 895 kiloqram barama istehsal edərək tədarük məntəqəsinə təhvil veriblər.

Üzümçülük və meyvəçilik rayon iqtisadiyyatının ən gəlirli sahələrindən biridir. Hazırda rayon üzrə 1048 hektar üzüm bağı və 1165 hektar meyvə bağı vardır. Üzüm və meyvə bağlarında aqrotexniki tədbirlər həyata keçirilir. Rayonda intensiv bağçılığın inkişafına diqqətlə yanaşılır. Bu il Qalınçaq kəndində 11,5 hektar sahədə intensiv meyvə bağı salınıb, 3,5 hektarına dəmir-beton dirəklər basdırılıb, məftil çəkilib. İntensiv meyvə bağlarının salınmasına diqqət daha da artırılır. Rayonda 1000 hektar intensiv meyvə bağlarının salınması üçün Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli şərtlərlə kreditlərin verilməsi nəzərdə tutulur.

Mirdaməd müəllim rayonun xidmət sahələrindəki vəziyyətlə bağlı geniş söhbət açsa da, təhsil sektorunun inkişafının üzərində xüsusilə dayandı: – Aparılan islahatlar, həyata keçirilən elmi-pedaqoji tədbirlər sayəsində zəngin maarifçilik ənənələrinə malik olan təhsilimiz 2016-cı ilin geridə qalan aylarında daha da inkişaf edib, rayonun təhsil uğurları artıb. Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni texnologiyaların tətbiqi, təhsilin müasir standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Keçirilən respublika, zona və rayon səviyyəli tədbirlərdə, bilik yarışlarında, fənn olimpiadalarında, müxtəlif müsabiqələrdə, idman yarışlarında şagirdlərimiz yüksək uğurlar qazanıblar. İstedadlı şagirdlərimiz fənn olimpiadalarında yüksək bilik nümayiş etdirirlər. Təhsil Nazirliyinin keçirdiyi beynəlxalq fənn olimpiadalarının seçimində kimya, riyaziyyat, fizika fənləri üzrə rayon məktəblərinin 5 nəfər şagirdi qaliblər sırasında olub. Ümumtəhsil müəssisələrində 1224 ədəd kompüter, 100-dən çox proyektor, 46 ədəd elektron löhvə şagirdlərin istifadəsindədir. Rayon üzrə hər 9 şagirdə 1 kompüter düşür. Məktəblərin əksəriyyətinin internetə çıxışı vardır.

... Yuxarıda İsmayıllı şagirdlərinin Yaponiyaya səfəri barədə qeydlərimiz var idi. Elə yazının sonunda da bu barədə söz açmaq istəyirdik. Çünki xarici aləmlə əlaqə mütləq inkişafa aparır. Ancaq Mirdaməd müəllimin rayon təhsili barədə dediyi fikirlərdə yazının finalı üçün daha önəmli olan bir cümləni eşitdik. Fikirlərimizi elə həmin cümlə ilə tamamlayırıq: – Rayonun qabaqcıl gənc yaradıcı müəllimləri Türkiyə, Rusiya, ABŞ, Almaniya, Yaponiya, Fransa, İngiltərə və sair ölkələrdə təhsillə bağlı keçirilən tədbirlərdə iştirak edib, təcrübə mübadiləsində olublar.

İsmayıllının bütün uğurlarının təməlində məhz həqiqi ziyalıların, müəllimlərin əməyi, zəhməti dayanır - desək, fikrimizcə, hamı bizimlə razılaşar.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***